# Hüseyn Cavid və Əbdürrauf Fitrət yaradıcılıqlarında milli özünüdərk

**Sənubər Səmədova**
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: senuber_samedova@mail.ru
https://orcid.org/0000-0001-8467-8908

**Annotasiya.** Azərbaycan-özbək ədəbi əlaqələrinin tarixi qədim dövrlərdən başlayır. Həm Azərbaycan, həm də Özbəkistan ədəbiyyatında bu əlaqələrin zəngin ədəbi mənzərəsini əks etdirən çoxsaylı mənbələr mövcuddur. Azərbaycan-özbək ədəbi əlaqələrinin öyrənilməsi həmişə aktual maraq doğurub. Məqalədə bu münasibətlər üzərində aparılan tədqiqatlar vurğulanır və onlara yeni kontekstdə nəzər salınması təklif olunur.
**Açar sözlər:** Hüseyn Cavid, özbək ədəbiyyatı, ədəbi əlaqələr, Əmir Teymur, dramaturgiya, Azərbaycan-özbək ədəbiyyatı, Əbdürrauf Fitrət

http://dx.doi.org/10.29228/edu.166
**Məqaləyə istinad:** Məmmədov B. (2020) *Hüseyn Cavid və Əbdürrauf Fitrət yaradıcılıqlarında milli özünüdərk.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh.212-217
**Məqalə tarixçəsi:** göndərilib – 01.05.2020; qəbul edilib – 11.05.2020

# National identity in the creativities of Huseyn Javid and Abdurrauf Fitrat

**Sanuber Samedova**
Institute of Literature named after Nizami Ganjavi. Azerbaijan.
E-mail: senuber_samedova@mail.ru
https://orcid.org/0000-0001-8467-8908

**Abstract.** The history of Azerbaijani-Uzbek literary relations dates back to ancient times. Both Azerbaijani and Uzbek literature contain numerous sources reflecting rich literary picture of these relations. Study of Azerbaijani-Uzbek literary relations has always been of topical interest. The article highlights researches on these relations and offers a look at them in a new context.
**Keywords:** Huseyn Javid, Uzbek literature, literary relations, Amir Teymur, dramaturgy, Azerbaijani-Uzbek literature, Abdurrauf Fitrat

http://dx.doi.org/10.29228/edu.166
**To cite this article:** Samedova S. (2020) *National identity in the creativities of Huseyn Javid and Abdurrauf Fitrat.* «Comparative Literature Studies», Issue I, pp. 212-217
**Article history:** received – 01.05.2020; accepted – 11.05.2020

## Giriş / *Introduction*

XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanda və Türküstanda cərəyan edən hadisələr və ictimai-siyasi dəyişikliklər ədəbiyyatın qarşısında tamam başqa tələblər və vəzifələr qoyurdu. Bu tələb və vəzifələrin ən ciddiləri milli özünüdərk və milli dirçəliş təmayüllərinin bədii inikası ilə bağlı idi. Eyni zamanda yeni təmayülləri və qayələri geniş oxucu kütlələrinə çatdırmaq və aşılamaq üçün onları, minillik ədəbiyyatın, əsrlərin sınağından çıxmış həmişəyaşar ənənələri ilə uyğunlaşdırmaq lazım idi.

Azərbaycan və özbək ədəbiyyatlarının həmin dövrlərinin ən qabaqcıl ədəbi qüvvələri məhz bu tələb və vəzifələri yerinə yetirməli idilər. Yaradıcılıqları ilə tədqiqatımız üçün xüsusi əhəmiyyət kəsb edən Hüseyn Cavid də, Əbdürrauf Fitrət də mənsub olduqları ədəbi mühitin və ədəbi-bədii mübarizənin ön sıralarında gedirdilər. Burada ədəbi mühitin rəngbərəngliyi və müəyyən mənada mürəkkəbliyi ilə bağlı mühüm bir amili də qeyd etməyə ehtiyac duyulur. XX əsrin əvvəllərində, türkdilli ədəbi mühitdə, xüsusən, Azərbaycanda eyni təmayüllərə, o sıradan, milli dirçəliş və özünüdərk ideyalarına münasibətdə bir-biri ilə yarışan, sözün yaxşı mənasında bir-biri ilə mübarizə aparan müxtəlif ədəbi məktəblər və cərəyanlar da mövcud idi və onların bəzi ədəbi hadisələrə, xüsusən dil və üslub məsələlərinə münasibətləri bir-birindən fərqlənirdi.

## Əsas hissə / *Main Part*

Bu nöqteyi-nəzərdən həm Cavidin, həm Fitrətin dili öz dövrü və mühiti üçün məqbul sayılmaqdan əlavə, həm də özündə milli özünüdərk ideyalarının yüksək bədii ifadəsi üçün vacib olan ünsürləri cəmləşdirmişdi. Ən mühümü, bu ünsürlər onların hər ikisinin dilini ortaq türkcəyə doğru aparırdı və bütün türkdilli xalqlar tərəfindən başa düşülməsini asanlaşdırırdı.

Hüseyn Caviddən fərqli olaraq, Əbdürrauf Fitrətin dilində İstanbul türkcəsinin izləri nisbətən az olsa da, ortaq türkcəyə can atmaq və yaxınlaşmaq baxımından yuxarıdakı elmi yanaşmanı müəyyən mənada Fitrətin bədii dili və üslubuna da aid etmək olar. Həm poetik dil və üslub baxımından, həm də yüksək mənəvi dəyərləri tərənnüm etmək baxımından milli özünüdərk qayələrinə xidmət etməklə yanaşı, Hüseyn Cavidin və Əbdürrauf  Fitrətin ənənə və novatorluğun sərhədlərini və vəhdətlərini nümayiş etdirən şeirlərindən bir neçə paralel örnəyi nəzərdən keçirək. Bu paralel örnəklərdən birincisi Cavidin “Qız məktəbində” və  Fitrətin “Müəllimlər yurduna” şeirləridir. Hər iki şeirdə Azərbaycan və özbək ədəbiyyatlarında artıq o zamana qədər güclü ənənə halını almış bir motiv – maarifin əhəmiyyəti, güc-qüdrəti tərənnüm olunur. Amma onlardan hər birinin ahəngindən tutmuş tərənnüm üsuluna qədər, bənd quruluşundan tutmuş yenilikçi obrazlarına qədər bir çox poetik məziyyətlərində, öz müəllifinin orijinallığı və özünəməxsusluğu göz önündədir. Öncə Cavidin “Qız məktəbində” şeirinə diqqət yetirək:

– Quzum, yavrum! Adın nədir?
– Gülbahar.
– Pəki, sənin anan, baban varmı?
– Var.
– Nasıl, zənginmidir baban?
– Əvət, zəngin, bəyzadə...
– Öylə isə, geydiyin geyim neçin böylə sadə?
Yoxmu sənin incilərin, altun bilərziklərin?
Söylə, yavrum! Heç sıxılma...
– Var əfəndim, var… lakin
Müəlliməm hər gün söylər, onların yox qiyməti,
Bir qızın ancaq bilgidir, təmizlikdir ziynəti.
– Çox doğru söz… Bu dünyada sənin ən çox sevdiyin

Kimdir, quzum, söylərmisən?
– Ən çox sevdiyim ilkin
O Allah ki, yeri-göyü, insanları xəlq eylər.
– Sonra kimlər?
– Sonra onun göndərdiyi elçilər.
– Başqa sevdiklərin nasıl, yoxmu?
– Var...
– Kimdir onlar?
Anam, babam, müəlliməm, bir də bütün insanlar… [1, s.49]

Azərbaycan poeziyası tarixində bir balaca məktəblinin elmə və təhsilə rəğbətini bundan səmimi və bundan təsirli ifadə edən ikinci bir nümunəyə rast gəlmək çox çətindir. Ən mühümü, Cavid qələminin özünəməxsus böyük qüdrəti ondadır ki, o, bu səmimi etiraf və rəğbəti adi məktəblinin deyil, məhz zəngin ailəyə mənsub məktəbli qızın dilindən səsləndirir. Bu məziyyət və ümumən şeirin aşıladığı dəyərlərin orijinal bir üsulla, azyaşlı məktəbli təfəkkürü üçün səciyyəvi və cəlbedici olan dialoq yolu ilə tərənnümü onun təsir gücünü qat-qat artırır.

Fitrətin "Müəllimlər yurduna" şeiri isə elmə və təhsilə rəğbəti tamam başqa üsulla, elm və tərəqqi düşmənlərinə, nadanlığa və cəhalətə qarşı üsyankar çağırışlar vasitəsiylə əks etdirir:

*Arkadaşlar, gəlin, birgə cəhalətin evin yıxaq,*
*Elin gözün bağlı tutan qara pərdələri yırtaq.*
*Bizik bu gün maarifin aslanları, elm nərləri,*
*Gəlin, birgə türk elinə doğru – düzgün yollar açaq!*
*Elləri məhvdən qurtaran elmdir,*
*Bizi də bu gündən o qurtaracaq! [2, s.37].*

İstər Azərbaycanda, istər Türküstanda, istər başqa türkdilli bölgə və məkanlarda elmin və maarifin yeni təhsil və tədris üsulunun tərənnümü və təbliği milli oyanış və özünüdərkə ən güclü təsir göstərən yollardan biri sayılırdı. Ona görə də Cavidin və Fitrətin yaradıcılığında bu ənənəvi mövzunun tərənnümü yeni-yeni çalarlar və xüsusiyyətlər kəsb edirdi.

Şair, şeir və ilham pərisi obrazları da, belə götürəndə, min illər ərzində Şərq poeziyasında ənənəvi obrazlardan hesablanırdı. Buna baxmayaraq, Hüseyn Cavidin "Şeir məftunu" və Əbdürrauf Fitrətin "Şair" şeirlərində həmin obrazların yeni qiyafəsi və cizgiləri çoxəsrlik ənənələri həm məzmun cəhətdən, həm forma cəhətdən zənginləşdirməkdə və yeniləşdirməkdə idi.

Əbdürrauf Fitrətin heca vəznində yazılmış "Şair" şeirində isə poetik mənzərə bir az başqa cürdür. Lirik qəhrəmanın öz sevgilisi ilə söhbəti əsasında qurulmuş poetik səhnənin birinci hissəsində o, başqa bir şairin sevgilisindən eşitdiyi sözlərdən təsirlənərək, öz ovqatını həmsöhbətinə aşağıdakı sətirlərlə çatdırmağa çalışır:

*Bu gün ağlar otururdum, sən gəldin,*
*Bir şairin bir "sözünü" söylədin.*
*Mən o sözün ruhundakı izlərin,*
*Sənin gözəl gözlərindən oxudum.*
*Oxuduqca o izləri*
*Özüm üçün nə ümidlər toxudum!..*
*Ümidsiz həyatım çətindir, neynim,*
*Bax, o "sözü" şair yanına yazmış,*
*Bir məktubda könül izharın etmiş.*
*Ruhu üçün ondan mədəd diləmiş [2, s.31].*

Müharibələrə və şərə qarşı, insanları, millətləri, dövlətləri bir-birindən ayrı salan münaqişələr və fitnə-fəsadlar əleyhinə həm Azərbaycan, həm özbək poeziyasında kifayət dərəcədə sanballı nümunələr vardır. Əlişir Nəvainin “Bir aləm istəyirəm ki...” qəzəlindən tutmuş Məhəmməd Füzulinin “Padişahi-mülk” qitəsinə qədər, adları rəmzi məna daşıyan “Bəngü-badə” və “Səydü səyyad” əsərlərindən tutmuş XX əsr Azərbaycan romantizminin başqa bir görkəmli nümayəndələri Məhəmməd Hadinin “Əhvali-intibah, yaxud insanların tarixi faciəsi” adlı poemasına qədər bir çox bədii nümunələrdə şərə və fitnə-fəsadlara, haqsızlıqlara və qardaş qırğınlarına qarşı qələmlə mübarizə geniş ənənəyə çevrilmişdir. Hüseyn Cavidlə Əbdürrauf Fitrət də bu ənənəni davam etdirərək bir çox poetik nümunələr yaratmışlar. Bu cəhətdən, Cavidin “Hərb və fəlakət” şeiri ilə Fitrətin “Öyüd” şeiri diqqətəlayiqdir. Hüseyn Cavidin “Hərb və fəlakət” şeiri həcmcə daha böyük, az qala yığcam poema həcmində bir poetik nümunədir. 1916-cı ildə, Birinci Dünya müharibəsinin ən qızğın dönəmində yazılmış və şairin 1917-ci ildə çıxan ikinci şeirlər kitabında (“Bahar şəbnəmləri”) birinci yer almış bu şeirlə bağlı başqa bir ciddi məsələ üzərində dayanmaq lazım gəlir. Heç də təsadüfi deyildir ki, sovet dönəmində mövcud ideoloji qadağalar şəraitində “Hərb və fəlakət” şeiri Hüseyn Cavidin ən çox təqib və təzyiqlərə məruz qalan, ən çox təhrif olunan və ixtisara salınan əsərlərindən biri olmuşdur. Bunun səbəbini, həmin haqsızlıqların canlı şahidi olan Turan Cavid belə izah edirdi:

“Cavid yaradıcılığına bəzən, hətta kobud zorakılıq səviyyəsində müdaxilələr çox olub. Bu baxımdan təkcə “Hərb və fəlakət” şeirini xatırlatmaq bəs edər. Şeir əslində üç hissədən ibarətdir. 1958-ci ildə onun yalnız birinci hissəsi, 1984-cü ildə nəşr olunan dördcildlik “Əsərlər”də birinci və üçüncü hissələri çap olunub. “Hərb və fəlakət”in başlıca qayəsi isə onun ikinci hissəsində ifadə olunur” [1, s.5].

“Hərb və fəlakət” şeirinin əvvəlində “Anadolu hərbzadələrinə yardım münasibətilə” adlı müəllif qeydi var. Bu qeydin özü, bir tərəfdən, Hüseyn Cavidin bir millət mücahidi kimi böyük vətənpərvərliyinin parlaq sübutudursa, ikinci tərəfdən, qələmin qüdrətinin ağır və məsuliyyətli dönəmlərdə xalqın və millətin dərdlərinə müəyyən mənada məlhəm, təsəlli və təskin olduğuna dəlildir.

Şeir üç böyük hissədən ibarətdir. Birinci hissədə şair dəhşətli müharibə səhnələrinin ustalıqla təsviri ilə bərabər, eyni zamanda insanlığın faciəli taleyi ilə bağlı dərin fəlsəfi düşüncələrə dalır və bir sıra poetik sualların ardınca bəşər faciəsinə dair ciddi bədii ümumiləşdirmələr və xülasələrə nail olur.

Şeirin ikinci hissəsi, Turan Cavidin vurğuladığı kimi, onun “başlıca qayəsi”ni əks etdirdiyi üçün, üstəlik bizim mövzumuza hər mənada birbaşa əlaqədar olduğuna görə, bu hissə üzərində ətraflı dayanmalı olacağıq. Bu hissə, türkün tarixi qüdrətinin və Turanın şan-şöhrətinin tərənnümü ilə başlayır. Hüseyn Cavidin misilsiz poetik məharətinin bir özünəməxsusluğu da burada üzə çıxır. Belə ki, birinci hissədəki ağır və hüznlü məzmun üçün nisbətən təmkinli vəzni seçən həssas şair – ikinci hissədəki nikbin və qürurverici tarixi şan-şöhrətin təsviri üçün nisbətən yüngül və oynaq vəznə keçir:

*Bir zamanlar şərəfli Turanın,*
*O cihani ğiryui qavğanın*
*Qəhrəman, bir güzidə evladı,*
*Türklərin anlı-şanlı əcdadı,*
*Saldırıb titrədirdi yer yüzünü,*
*Hökm edər, dinlətirdi hər sözünü,*
*Nə zaman kişnəsəydi türkün atı,*
*Qırılırdı bir ölkənin qanatı.*
*Həp krallar, prenslər, xanlar,*
*Ulu şahlar, kibirli xaqanlar,*
*Papalar, həp xəlifələr hər gün,*
*Diz çökərlərdi türkə qarşı bütün.*
*Çünki parlardı ərlərin qılıcı,*
*Həpsi qartal kibiydi saldırıcı.*

*Həpsi bir zevq alırdı qüvvətdən,*
*Ululuqdan, müzəffəriyyətdən [1, s.51].*

“Hərb və fəlakət” məzmun–mündəricə zənginliyi baxımından Cavidin ən məşhur və ən sanballı şeirlərindən biridir. Bu şeirdə təkcə milli dəyərlərin tərənnümü deyil, ümumbəşəri duyğu və yaşantıların təsviri də kifayət qədər geniş yer tutur. Ümumən, Hüseyn Cavid humanizminin bir qanadını millilik təşkil edirsə, ikinci qanadını ümumbəşərilik müəyyənləşdirir. Ona görə də Cavid romantizmi özünün dərin xəlqi və humanist mahiyyəti ilə Azərbaycan ədəbiyyatını, bütün Şərq və dünya miqyasında şərəflə təmsil edə bilən böyük ədəbi hadisələrdən sayılır.

“Hərb və fəlakət” şeirində Cavid öz oxucularını yalnız millət taleyinin, faciəli mənzərələri ilə tanış etməklə kifayətlənmir, bu ağır faciələr girdabından çıxış yolunu da göstərir. Ümumiyyətlə, Hüseyn Cavid humanizminin ən səciyyəvi və ibrətamiz tərəflərindən biri də onun səmimi və həyata olan nikbinliyidir. Amma bu nikbinlik şairin bəzi müasirlərində olduğu kimi, şüarbazlıq və yersiz pafoslarla deyil, həyatın özündən gələn gərgin dramatizm və dərin psixologizm ilə müşayiət olunur.

“Hərb və fəlakət” şeirinin üçüncü və sonuncu hissəsi müəllifin milli oyanış, özünüdərk və həmrəyliklə bağlı poetik yaşantılarını və çağırışlarını əks etdirir: Şair öz xalqının və millətinin zülm və səfalət girdabından çıxış yolunu yalnız və yalnız milli birlikdə və həmrəylikdə görür.

Əbdürrauf Fitrətin milli birliyə, mübarizəyə çağırış mənasında “Hərb və fəlakət”ə paralel olan, amma həcmcə ondan xeyli dərəcədə yığcam olan “Öyüd” şeirində isə poetik yaşantının ifadəsi kifayət qədər fərqlidir. Fitrət xalq və millət faciəsi ilə bağlı öz təlatümlü duyğularını, çılğın könül çırpıntılarını vətənpərvər bir gəncə xitabən dilə gətirir. Cəmi 11 misradan ibarət olan bu lakonik poeziya nümunəsindən XX əsrin əvvəllərindəki millətpərvər Türküstan gənclərinin müstəmləkəçilik zülmünə qarşı mübariz əhvali-ruhiyyəsi və üsyankar əzmini hiss etmək çətin deyil:

*Sənsən igid, sənin gözəl, nurlu gözündə*
*Bu millətin, səadətin, bəxtin oxudum.*
*Düşüncəndə, sükutunda həm də özündə*
*Bu yurd üçün qurtuluşun varlığın gördüm.*

*Durma, çalış, susma, yarış, əyilmə, yüksəl,*
*Ürkmə, saldır, qorxma, yapış, yorulma, cum!*
*El yolunda əngəl olan köhnə qara buludları,*
*Dağıt yaxıb, yırt biryolluq, rədd et hamısın!*
*Bacarmasan bu işləri,*
*Sənin üçün çox ayıbdı.*
*Yıxıl, gəbər, rədd ol! [2, s.45]*

Şairin öz ümid yeri bildiyi, güvəndiyi qüvvəyə nisbətən sonuncu misrada ifadə olunmuş qəzəb və tüğyanının ona olan sonsuz məhəbbətindən və inamından irəli gəldiyini həssas oxucunun düzgün başa düşməsinə ümid edirik.

Bu illərdə çağatay (özbək) ədəbiyyatında pyes janrının inkişafında Əbdürrauf Fitrətin (1886-1937) xidmətləri xüsusilə təqdirəlayiqdir. Fitrət 1920-ci ildə tamamladığı «Hind ixtilalçıları» adlı tarixi pyesini öz ölkəsində senzuradan keçirə bilmədiyi üçün gizli yolla 1923-cü ildə Avropada-Berlində nəşr etdirmişdi. Bundan başqa, Fitrət «Əbu Müslüm», «Əbülfəz xan», «Teymurun məzarı» pyeslərini yazmış və bu əsərlərin də mövzusu tarixi hadisələri əks etdirirdi. Məhz bu əsərlərindəki milliyyətçilik, pantürkçülük və panislamçılıq meyillərində suçlanan Ə.Fitrət 1937-ci ildə həbs olundu və öldürüldü. «Teymurun məzarı», «Oğuz xan», «Çingiz xan», «Uluğ bəy» kimi tarixi əsərləri 1920-ci illərdən belə milli teatr səhnəsində oynandığı halda, 1991-ci ilə qədər nəşr üzü görmədi [2, s.205].

**Nəticə / *Conclusion***

Beləliklə, milli oyanış və özünüdərk qayələrinin bədii ifadəsində ənənə və novatorluğun sərhədləri ilə bağlı Hüseyn Cavid və Əbdürrauf Fitrət poeziyasından nəzərdən keçirdiyimiz paralel örnəklər hər iki sənətkarın həm ənənə, həm novatorluq məsələsinə kifayət qədər həssaslıqla və yüksək məharətlə yanaşdığının şahidi oluruq. Sonda belə qənaətə gəlmək olar:

- Azərbaycan və özbək ədəbiyyatlarında, o cümlədən Hüseyn Cavid və Əbdürrauf Fitrət yaradıcılıqlarında milli özünüdərk və oyanış ideyalarının bədii ifadəsi, hər şeydən öncə, XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanda və Türküstanda baş verən ictimai-siyasi hərəkat və hadisələrdən qaynaqlanırdı və dövrün, zamanın diktəsi və təsiri ilə sözügedən ictimai-tarixi gerçəkliyin əks-sədası idi.

- İstər Hüseyn Cavid yaradıcılığında, istər Əbdürrauf Fitrət əsərlərində milli oyanışı və özünüdərki əks etdirən şeiriyyət nümunələri həmin dövrdəki Azərbaycan və özbək poeziyalarının bədii cəhətdən sanballı nümunələri sayılmaqla bərabər, hər iki poeziyada milli özünüdərk qayələrinin bədii təşəkkülü və formalaşmasında olduqca mühüm rol oynamışlar. Hər iki sənətkarın, eləcə də hər iki ədəbiyyatın eyni mövzu və motivlərin tərənnümü ilə bağlı kəsişən və üst-üstə düşən ümumi cəhətləri olduğu kimi, bədii məharət baxımından özünəməxsusluqları və fərqli xüsusiyyətləri daha çoxdur. Bu əlamətlər onlardan hər birinin ümumən ədəbiyyat tarixində tutduğu yeri müəyyənləşdirməkdə daha mühüm rol oynayır.

- Milli özünüdərk və oyanış qayələrinin bədii ifadəsində Hüseyn Cavid dühası və Əbdürrauf Fitrət istedadı özlərinə qədərki ənənələri davam etdirməklə bərabər, bu ənənələri yeni-yeni motivlərlə və novatorluq nailiyyətləri ilə xeyli zənginləşdirdilər, eyni zamanda sözügedən qayələri və dəyərləri öz xalqlarının milli mənəvi mülkünə çevirdilər.

**Ədəbiyyat/ *References***

1. H.Cavid. Əsərləri (5 cilddə), I cild. Bakı, 2007.
2. Almaz Qasım qızı Binnətova (Almaz Ülvi). Azərbaycan-özbək (cağatay) ədəbi əlaqələri (dövrlər, simalar, janrlar, təmayüllər). Bakı, “Qartal”, 2008.

## Национальное самосознание в творчестве Гусейна Джавида и Абдуррауфа Фитрата

**Санубер Самедова**
Институт литературы имени Низами Гянджеви. Азербайджан.
E-mail: senuber_samedova@mail.ru

**Резюме.** История азербайджано-узбекских литературных связей уходит в древние времена. Как в азербайджанской, так и в узбекской литературе существуют многочисленные источники, отражающие их богатую литературную картину. Исследование азербайджано-узбекских литературных связей, обладающих древней историей, являлось актуальным во все времена. В статье повествуется об исследовательских работах, отражающих данные связи, выражается отношение к ним в новом контексте.
**Ключевые слова:** Гусейн Джавид, узбекская литература, литературные связи, Амир Теймур, драматургия, азербайджано-узбекская литература, Абдуррауф Фитрат